# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


№ 066 (7476)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

4 sentyabr 2026-cı il.
Qiyməti 1 manat


## Bakıda yenidən Formula 1 həyəcanı başlayır




3

## Azərbaycan inkişaf edən etibarlı tərəfdaşdır



2

*Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidentini, BMT-nin Azərbaycanda yeni təyin olunmuş rezident əlaqələndiricisini və Çin Ali Xalq Prokurorluğunun Baş prokurorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

# Moskva - İrəvan "nikahına" SON?



4

## Naxçıvanın unikal geoiqtisadi potensialı



3

## Pul kisəsi tarixə çevrilir?



6

## 70 milyonluq rüşvət, məbləğ arta bilər



7

## Terrorizmlə mübarizə Azərbaycanı regionun SÜLH arxitektoruna çevirib



5

## Mən mədəniyyətimdən ölürəm



5



# Azərbaycan inkişaf edən etibarlı tərəfdaşdır





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietronu qəbul edib. Qonaq ATƏT məkanında mövcud münaqişələrdən birinin həll olunduğunu və regionda davamlı sülhün təmin edildiyini deyərək, bu xüsusda dövlətimizin başçısını Azərbaycanla Ermənistan arasında sülh gündəliyində qazanılmış nailiyyətlər münasibətilə təbrik etdi.***

## *Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidentini, BMT-nin Azərbaycanda yeni təyin olunmuş rezident əlaqələndiricisini və Çin Ali Xalq Prokurorluğunun Baş prokurorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı 30 ilə yaxın müddətdə münaqişənin həllinə məsul olan ATƏT-in Minsk qrupu tərəfindən danışıqlar prosesində hər hansı bir nəticənin əldə edilmədiyini və BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrin yerinə yetirilmədiyini təəssüflə vurğuladı.

Prezident İlham Əliyev dedi ki, Azərbaycan özü münaqişəyə hərbi-siyasi vasitələrlə son qoyub, ərazi bütövlüyünü və suverenliyini təmin edib. Söhbət zamanı Avropanın bəzi parlament təsisatlarından fərqli olaraq, Azərbaycanın ATƏT Parlament Assambleyası ilə təmaslarından və siyasi dialoqdan məmnunluq ifadə edildi.

ATƏT Parlament Assambleyasının gündəliyində də bütün ATƏT məkanına balanslı münasibətin nümayiş etdirilməsinin önəmi vurğulandı. Görüşdə mədəniyyətlərarası dialoqa toxunuldu, Azərbaycanın bu prosesdə rolu və töhfələri məmnunluqla qeyd edildi. ATƏT Parlament Assambleyasının prezidenti Bakıda keçirilən "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının əhəmiyyətinə toxunaraq, minalar probleminin ATƏT Parlament Assambleyasının gündəliyində də müzakirə olunduğunu bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 2-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycanda yeni təyin olunmuş rezident əlaqələndiricisi Dmitro Şlapaçenkonu qəbul edib. Dmitro Şlapaçenko etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Ölkəmizlə BMT arasında əlaqələrə toxunan Prezident İlham Əliyev Azərbaycanda COP29 və Ümumdünya Şəhərsalma Forumu kimi böyükmiqyaslı BMT tədbirlərinin keçirildiyini vurğuladı, bu il də BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə Mədəniyyətlərarası Dialoq Forumunun təşkil ediləcəyini dedi.

Azərbaycanın BMT-nin vacib tərəfdaşı olduğunu və "orta güc" dövləti kimi bu qurumun mötəbər tədbirlərinə ev sahibliyi etdiyini vurğulayan Dmitro Şlapaçenko bu xüsusda Bakıda COP və Ümumdünya Şəhərsalma Forumunun təşkil olunduğunu xatırladı. O, bu gün Bakıda "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının keçirildiyini deyərək, ölkəmizdə BMT-nin İqlim Həftəsi tədbirinin də olacağını qeyd etdi. Dmitro Şlapaçenko Azərbaycanın BMT-nin müvafiq qurumlarının fəaliyyətinə verdiyi dəstəyi yüksək qiymətləndirdi.

O, Azərbaycanın hazırda həyata keçirdiyi inkişaf proqramına BMT-nin də öz təcrübəsi ilə dəstək verməyə hazır olduğunu bildirdi, bu xüsusda Qarabağda və Şərqi Zəngəzurda postmünaqişə şəraitində aparılan böyükmiqyaslı işlərin vacibliyinə toxundu.

Minalar problemini qeyd edən Dmitro Şlapaçenko BMT-nin bu məsələdə Azərbaycana dəstək verməyə və təcrübəsini bölüşməyə hazır olduğunu dedi. Dövlətimizin başçısı da işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işlərindən danışdı, ölkəmizin üzləşdiyi mina probleminin miqyasını qeyd etdi. Prezident İlham Əliyev bunun bərpa-quruculuq işlərinə mane olmasına baxmayaraq, Azərbaycanın minatəmizləmə sahəsində də ardıcıl fəaliyyətini davam etdirdiyini vurğuladı.

Dmitro Şlapaçenko tezliklə Qarabağa səfər edəcəyini bildirdi, BMT Günü ilə əlaqədar Qarabağ Universitetində böyük bir tədbirin keçirilməsinin planlaşdırıldığını qeyd etdi.

Görüşdə Cənubi Qafqaz regionunda transsərhəd çayların ekoloji mühitinin yaxşılaşdırılması və bu sahədə monitorinqlərin aparılması, Xəzər dənizinin suyunun azalması kimi ekoloji məsələlər də müzakirə olundu.

Prezident İlham Əliyev sentyabrın 2-də Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru Yinq Yonqun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə Şanxay şəhərinin prokuroru Çen Yong, Ciangsu əyalətinin prokuroru Çjao Tyeşi və Qansu əyalətinin prokuroru Şen Cian daxildir.

Görüşdə çıxış edən Prezident İlham Əliyev əmin olduğunu bildirib ki, bu səfər münasibətlərimizin bütün sahələrdə daha da inkişafına xidmət edəcək. Sonra Çin Ali Xalq Prokurorluğunun Baş prokuroru Yinq Yonq çıxış edərək fikirlərini çatdırıb.

# Bakıda yenidən Formula 1 həyəcanı başlayır




## Dövlət başçımız viza prosedurlarının sadələşdirilməsi haqqında Sərəncam imzalayıb

***Son illərdə Azərbaycan, beynəlxalq motor idmanı xəritəsində mühüm yer tutmağa başlayıb. Bunun əsas səbəblərindən biri Formula 1 yarışlarının paytaxt Bakı şəhərində keçirilməsidir. Formula 1 Bakı yalnız yarış sevərləri üçün deyil, həm də ölkənin turizm, mədəniyyət və iqtisadi inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Bakı Qran Prisi, hər il minlərlə turist və idman həvəskarını cəlb edərək şəhəri sürət və həyəcan mərkəzinə çevirir.***

Paytaxt Bakımız yenidən növbəti dəfə Formula 1 yarışlarına ev sahibliyi edəcək. Həmişə olduğu kimi, mötəbər yarış bu dəfə də öz azarkeşlərinə böyük sevinc hissini yaşadacaqdır. Hər il olduğu kimi, bu il də yarışların yüksək səviyyədə təşkili üçün lazımı işlər görülüb. Bu o deməkdir ki, Azərbaycan beynəlxalq tədbirlərin təşkilində yüksək təşkilatçılıq bacarığına malik olan ölkədir. Heç şübhəsiz ki, beynəlxalq idman yarışlarına ev sahibliyi edən Azərbaycan növbəti dəfə öz təcrübəsindən yararlanaraq, Formula 1 yarışlarını da uğurla başa vuracaq.

2026-cı ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, 2026-cı ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2026-cı il avqustun 25-dən sentyabrın 30-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər. Qeyd olunur ki, Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin: Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya akkreditasiyadan keçməni təsdiq edən digər sənəd; Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı; 2026-cı ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışına bilet, o cümlədən elektron bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi 2026-cı ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə "Formula One Management Limited" Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına, Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin. 2026-cı ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

### BƏNZƏRİ OLMAYAN TREK

Bakı şəhər halqasında dünyanın ən məşhur pilotları yarışacaqlar. İçərişəhəri, paytaxtın müasir memarlıq abidələrini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən ecazkar mənzərəni görmüş olacaqlar. 1950-ci ildən etibarən hər il keçirilən "Formula-1"in möhtəşəmliyi üçün paytaxtımızda istənilən şərait yaradılıb. Plotlar əfsanəvi tarixi yerləri əhatə edən və heç bir yerdə bənzəri olmayan trekdə yenidən yarışacaqlar. Məlumdur ki, dünya ölkələrində keçirilən Formula 1 yarışları çərçivəsində Bakıda keçirilən ən yaxşı yarış hesab edilir. Bir daha dünya görəcək ki, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verən Azərbaycan qitə və dünya miqyaslı tədbirlərə uğurla ev sahibliyi edir.

Son illərdə Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına və onlarla belə irimiqyası beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan 2016-cı ildən başlayaraq "Formula-1" yarışlarına da uğurla ev sahibliyi edir. Təbii ki, bütün bu və ya digər idman yarışlarının ölkəmizdə təşkili Azərbaycanın idman siyasətinin uğuru, beynəlxalq federasiyaların ölkəmizdə aparılan işlərə, həmçinin, idman və bədən tərbiyəsi sahəsində nailiyyətlərimizə verilən qiymətin göstəricisidir. Belə yarışların keçirilməsi, onu göstərir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutub. Bildiyimiz kimi, Formula 1 yarışları yarım milyarda yaxın tamaşaçı auditoriyasına görə dünyada futboldan sonra ikinci yeri tutur. Bu sayda tamaşaçı auditoriyasına malik yarış Azərbaycanın dünyada daha da tanıdılmasında müstəsna rola malikdir.

Təbii ki, keçirilən bu və ya digər tədbirlər turistlərin ölkəmizə axınını daha da gücləndirib. Bakıda keçirilən "Formula-1" Avropa Qran-Prisi yarışlarını dünyanın 200-yə yaxın ölkəsində 500 milyondan çox azarkeşin televiziya vasitəsilə izləməsi, təbii ki, ölkəmiz ətrafında olan münasibətləri formalaşdırır.

### MÜASİR İNFRASTRUKTUR VƏ TƏHLÜKƏSİZ ÖLKƏ

Ölkəmizdə mötəbər idman yarışlarını keçirməsinin arxasında da, məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionu 68 min tamaşaçı tutumuna malikdir. Bu nəhəng idman qurğusu müasir memarlıq üslubu, xüsusi gözəlliyi və funksional baxımdan, əlverişliliyi ilə seçilir. Beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb. Əsas və köməkçi stadionlardan, həmçinin, mexaniki binadan ibarət olan stadionda əlil tamaşaçılar, VVIP, VIP, CIP və media bölmələri mövcuddur. Bakı Tennis Akademiyası da Azərbaycanda bu tipdə inşa edilmiş ilk idman qurğusudur. İlin bütün fəsillərində yerli və beynəlxalq yarış və məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik və havalandırma sistemi quraşdırılıb. Bundan başqa 3 min tamaşaçı tutan mərkəzi universal stadion inşa olunub. Stadionda tennislə yanaşı, voleybol, mini-futbol, basketbol, həndbol, çimərlik voleybolu, güləş, boks və idmanın digər növləri üzrə ən mötəbər çempionatlar və turnirlər keçirmək mümkündür. Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir.

*Nəzakət ƏLƏDDİNQIZI*



**Vəli Vəliyev**

# Naxçıvanın unikal geoiqtisadi potensialı

***Müstəqilliyimizin ilk illərindən, yəni 1993-cü ildən bəri Naxçıvan Muxtar Respublikasının (NMR) sosial-iqtisadi inkişafı daim diqqət mərkəzində olub. Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Muxtar Respublikanın hərtərəfli inkişafını xüsusi diqqət mərkəzində saxlayaraq onu ana prioritetlərdən birinə çevirmişdir. Xüsusilə "Naxçıvan Muxtar Respublikasının 2023–2027-ci illər üzrə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" və bu çərçivədə qəbul edilən sərəncamlar regionun unikal geoiqtisadi potensialını hərəkətə gətirməyə hesablanıb.***

Bu sənəd Naxçıvanın inzibati, iqtisadi və sosial idarəetmə sisteminin mərkəzi hakimiyyətlə tam inteqrasiyasını və Muxtar Respublikanın "donor regiona" çevrilməsini hədəfləyir. Bunun üçün Proqramın 5 ana sütunu formalaşdırılmalıdır:

İdarəetmədə şəffaflıq və islahatlar: Naxçıvanda mərkəzi idarəetmə modelinin (Prezidentin Xüsusi Nümayəndəliyi institutu vasitəsilə) möhkəmləndirilməsi, kölgə iqtisadiyyatının ləğvi və biznes mühitinin liberallaşdırılması.

Nəqliyyat-logistika qovşağı (Zəngəzur dəhlizi): Naxçıvanın regional təcriddən çıxarılaraq Türkiyə, Azərbaycanın əsas hissəsi və Mərkəzi Asiyanı birləşdirən "Orta Dəhliz"in açar qovşağına çevrilməsi.

Yaşıl enerji zonası: Naxçıvanın nəhəng günəş və külək enerjisi potensialından tətbiq olunmaqla istehsal edilən elektrik enerjisinin daxili tələbatdan artıq hissəsinin Türkiyə və Avropaya ixracı.

Sənaye və kənd təsərrüfatı: Xüsusi İqtisadi Zonaların (XİZ) yaradılması, mineral suların və filiz yataqlarının emalı, aqrar sektorda müasir suvarma sistemlərinin qurulması.

İnsan kapitalı və turizm: Səhiyyə və təhsil altyapısının yenilənməsi, Naxçıvanın tarixi-mədəni və müalicəvi (məsələn, Duzdağ) turizm mərkəzinə çevrilməsi.

Prezidentin Dövlət Proqramının icrası və maliyyələşdirilməsi ilə bağlı verdiyi son sərəncamlar prosesin kağız üzərində qalmaması, konkret zaman çərçivəsində nəticə verməsi üçün hüquqi və maliyyə mexanizmini təmin edir. Dövlət büdcəsindən və xarici investisiyalardan Naxçıvanın altyapısına (yollar, meliorasiya, elektrik şəbəkələri) milyardlarla manat dəyərində investisiya axını təmin olunur. Naxçıvanda biznes subyektləri üçün vergi, gömrük güzəştlərinin tətbiqi və Xüsusi İqtisadi Zonanın hüquqi çərçivəsinin tamamlanması xarici investorlar üçün regionu cazibədar edir. Nazirliklər və müvafiq dövlət agentlikləri Naxçıvanda birbaşa layihələrin icrasına cəlb olunub ki, bu da layihələrin icra sürətini artırır.

### Əldə olunacaq nəticə

Yeni sənaye müəssisələri və Xüsusi İqtisadi Zona hesabına minlərlə yeni iş yerinin açılması, regiondan Bakıya miqrasiyanın qarşısının alınması, Türkiyə ilə sərhəd-keçid məntəqələrinin modernləşdirilməsi və gömrük prosedurlarının sadələşdirilməsi ilə xarici ticarətin kəskin artması, istehsal olunan "yaşıl enerji" hesabına Muxtar Respublikanın enerji idxalçısından enerji ixracatçısına çevrilməsi, yeni dəmir yolu və avtomobil yollarının çəkilməsi, su təchizatı və meliorasiya sistemlərinin sıfırdan yenidən qurulması mümkün olacaq.

Bununla da Prezidentin sərəncamı və təsdiqlənmiş Dövlət Proqramı Naxçıvanın tarixində yeni bir inkişaf mərhələsinin əsasını qoyur. Naxçıvan artıq təcrid olunmuş, dotasiyadan asılı bir anklav kimi deyil, Cənubi Qafqazın logistika, yaşıl enerji və sənaye mərkəzlərindən biri kimi şəkillənir. Bu strategiya həm Muxtar Respublikanın əhalisinin rifahını kəskin artıracaq, həm də Azərbaycanın ümumi iqtisadi potensialına mühüm töhfə verəcəkdir.

# Moskva - İrəvan “nikahına” SON?

***Rusiya və Ermənistan liderləri Vladimir Putin və Nikol Paşinyan İrəvanın Avrasiya İqtisadi Birliyində (AİB) gələcəyi ilə bağlı danışıqlar aparıblar. Ermənistan liderinin sözlərinə görə, hər şey yaxşı keçib və o, hətta müzakirələri davam etdirmək üçün Moskvaya dəvət olunub. Lakin bu, dəyər mühakiməsidir və hamı bununla razılaşmır.***



Ümumilikdə, prezident və baş nazir arasında ictimai müzakirə Ermənistanın Avropaya inteqrasiyaya sadiqliyinin AİB-ə üzvlüyü ilə ziddiyyət təşkil edib-etməməsi məsələsi ətrafında cərəyan edib. Putin bunu problem kimi görür və həmkarına daha da gərginləşməmək üçün referendum keçirməyi təklif edib. Görünür, o, mövcud vəziyyəti nəzərə alaraq, ermənilərin əksəriyyətinin buna qarşı səs verəcəyindən və bununla da məsələnin sonunun çatacağından şübhələnir. Paşinyan öz növbəsində xalqın hələ onun düzgün hesab etdiyi qərarı verməyə hazır olmadığını və buna görə də heç bir referendum keçirilməyəcəyini gizlətməyə çalışmır.

“Düzünü desəm, Avropa inteqrasiyası haqqında qanunun qəbul edilməsi artıq o vaxtlar (2025-ci ildə) referendum ideyasından imtina etmək demək idi. Çünki əgər parlament bu qanunu o vaxt qəbul etməsəydi... Xatırlatmaq istəyirəm ki, bu qanun vətəndaş cəmiyyəti tərəfindən irəli sürülüb, yəni onlar Ermənistan vətəndaşlarından imza toplayıblar (Konstitusiya buna icazə verir) və layihəni parlamentə təqdim ediblər. Əgər parlament bu qanunu qəbul etməsəydi, təşəbbüskarlar daha 250.000 imza toplaya bilərdilər və əgər parlament bu dəfə onu rədd etsəydi, Ermənistanda referendum keçirməli olardıq. Beləliklə, bu qanunu qəbul etməklə biz faktiki olaraq referendum ideyasından imtina etdik. Bəs niyə ondan imtina etdik? Çünki bu məsələ xalqımıza təqdim edilə biləcək nöqtəyə çatmamışdı”, - deyə Paşinyan bildirib.



Burada bütün bunların Ermənistan liderinin çox dəyər verdiyi demokratik prinsiplər və Avropa dəyərləri ilə necə uyğunlaşdığını araşdıra bilərdik, amma gündəmdə daha aktual məsələlər var idi. Məsələn, Paşinyan həm Ermənistanda fəaliyyət göstərən, inkişaf edən və respublikaya əhəmiyyətli mənfəət gətirən uğurlu Rusiya şirkətlərinin, həm də bununla öyünə bilməyənlərin də mövcud olduğunu bildirib. Bu, Rusiya Dəmir Yollarının (RZD) törəmə şirkəti olan Cənubi Qafqaz Dəmir Yolları (CQD) tərəfindən idarə olunan Ermənistan Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyətinə (ERC) açıq şəkildə istinad idi.

Diqqətçəkən məqam budur ki, 2018 və 2019-cu illərdə Ermənistan hakimiyyəti CQD-ni vergidən yayınmaqda şübhəli bilib. Buna cavab olaraq Moskva CQD-yə olan hüquqlarından imtina etməklə hədələyib və şirkətə təzyiqlər dayandırılıb. Lakin o vaxt geosiyasi reallıq tamamilə fərqli idi və Paşinyan da buna toxunub, baxmayaraq ki, ”Qarabağ” sözünü qeyd etməyib. ”Son bir neçə ildə Ermənistan ətrafındakı bölgəmizdə vəziyyət dəyişib və biz inanırıq ki, vəziyyətə bu baxımdan baxmalıyıq. Çünki münaqişə zamanı Rusiya ilə Ermənistan arasında münasibətlər fərqli məna kəsb edirdi. İndi isə regionda sülh bərqərar olduğundan, biz inanırıq ki, vəziyyətə yeni baxışla baxmalıyıq. Düşünürəm ki, bu, münasibətlərimizin inkişafına töhfə verəcək və bununla biz münasibətlərimizin dərinləşməsini və inkişaf etdirilməsini nəzərdə tuturuq və bu, çox vacibdir”, - deyə hökumət başçısı bildirib.

Paşinyan həmçinin vurğulayıb ki, Ermənistan AİB-dən çıxarıla bilməz və Aİ-yə qoşulmağa dəvət olunana qədər təşkilatdan çıxmaq niyyətində deyil. Ermənistan liderinin sözlərinə görə, bu yanaşmada heç bir ziddiyyət yoxdur. Putinin şübhələrini aradan qaldırmaq üçün Paşinyan Moskvaya gəlməyə və onunla bütün birgə müqavilələri nəzərdən keçirməyə hazırdır.

Buna əmin olmayan Rusiya prezidenti xatırladıb ki, Moskvanın Avropa ilə yaxşı münasibətləri olsa belə, Aİ ilə AİB arasında əməkdaşlıq barədə razılığa gələ bilməyib. ”Bu baxımdan, Avropa mallarının, xidmətlərinin və sairənin Ermənistan vasitəsilə bazarımıza daxil olması ilə bağlı problemlər mütləq ortaya çıxacaq. Minlərlə sual var”, - deyə Putin izah edib.

Paşinyanla danışıqlardan sonra jurnalistlərin suallarını cavablandırarkən o, Ermənistan hakimiyyəti istək bildirsəydi, Moskva hətta Gümrüdən hərbi bazasını çıxarmağa hazır olduğunu bildirib. O, həmçinin izah etdi ki, KTMT 2021 və 2022-ci illərdə Ermənistanı Azərbaycanın təcavüzündən müdafiə etməyib, çünki Ermənistan-Azərbaycan sərhədi yox idi və bu da kimin ərazisində olduğunu müəyyən etməyi qeyri-mümkün edirdi. “Paşinyan KTMT-nin sərhədin müəyyən hissələrini qorumalı olduğuna inanırdı. Lakin bütün KTMT üzvləri deyirlər: yox, bu tamamilə fərqli bir hekayədir - sərhədin müəyyən hissələrini qorumaq... Sərhəd delimitasiyası, sərhəd müqaviləsi yoxdur, heç vaxt olmayıb və hələ də yoxdur. Azərbaycan sərhədin bu hissədən keçdiyinə inanır, Ermənistan isə həmin hissədən keçdiyinə inanır... Razılaşma haradadır?! Heç nə yoxdur! Bəs bu münasibətləri necə qurmalıyıq?” Putin izah edib.

Paşinyanın danışıqlar zamanı qeyd etdiyi Cənubi Qafqazdakı yeni reallığa gəldikdə isə, Rusiya prezidenti İrəvan üçün bir çox üstünlük görür. “Biz səhifəni çevirib heç bir münaqişə olmadan, heç nə olmadan irəliləyə, insanları yeni evlərində yerləşdirə, infrastrukturu aça, iqtisadiyyatda yeni bir həyata başlaya, investisiya üçün sərhədləri aça və sair... Əslində bir çox üstünlüklər də var”, - deyə Putin qeyd edib.

Bu arada, danışıqlardan sonrakı gün Aİ Şurası iki il müddətinə Ermənistan məhsulları ilə ticarətin liberallaşdırılması üçün tədbirlərin tətbiqinə razılıq verib. Brüssel vurğulayır ki, Rusiyanın Ermənistan mallarının idxalına qoyduğu məhdudiyyətlərə cavab olaraq, Avropa İttifaqı İrəvandan ixracın 80%-i üçün güzəştli rejim tətbiq edir. ”Avropa, Avropa İttifaqı ilə islahat və daha sıx əməkdaşlıq yolunu seçən Ermənistan və onun xalqı ilə birlikdədir. Bugünkü qərar aydın bir mesaj göndərir: iqtisadi məcburiyyətlə qarşılaşdığımız zaman Aİ cavab verəcək. Biz yeni imkanlar yaradacaq və tərəfdaşlarımızı dəstəkləyəcəyik”, - deyə İrlandiyanın Xarici İşlər və Ticarət Naziri Helen MakEnti bildirib.

Tətbiqi Siyasət Tədqiqatları İnstitutunun elmi işçisi Sergey Melkonyanın verdiyi məlumata görə, meyvə-tərəvəz yetişdirmə mövsümü başa çatdığı üçün bu tədbirlərin 2026-cı ildə hər hansı əhəmiyyətli müsbət təsir göstərməsi ehtimalı azdır, lakin gələn il investisiyaların geri qaytarılması mümkündür. Eyni zamanda, o, hesab edir ki, Brüsselin qərarı Ermənistanla AİB arasındakı münaqişəni daha da gərginləşdirməyəcək, çünki Ermənistanın Aİ-yə ixracı Avrasiya təşkilatının maraqlarına zərər vermir. “Danışıqlarla bağlı Paşinyan və Putin Ermənistan-Rusiya münasibətlərini yenidən nəzərdən keçirmək barədə razılığa gəliblər. Bu, yəqin ki, Ermənistanın baş naziri tərəfindən də qeyd edilən əsas müsbət xəbərdir. Nəticədə, Moskva danışıqları tamamilə tərk edə və sadəcə birtərəfli şəkildə əməkdaşlığı dayandıra bilərdi”, - deyə Melkonyan qeyd edib.

Eyni zamanda, ekspertin fikrincə, İrəvan Rusiya ilə əməkdaşlığın səviyyəsini aşağı salmaq üçün bir yol müəyyən edib. Bu, müdafiə, enerji, nəqliyyat infrastrukturu və ticarət də daxil olmaqla bütün sahələrə təsir edəcək. “Moskvaya gəldikdə isə, Cənubi Qafqazda təsirini qorumaq istəyib-istəmədiyinə, yoxsa boşanmağa hazır olduğuna qərar verməlidir. Onlar İrəvanın istədiyi kimi sivil şəkildə və ya qab-qacaq qırmaqla yollarını ayıra bilərlər. Çox güman ki, danışıqların növbəti mərhələsindən çox şey asılı olacaq. Bəlkə də riskləri minimuma endirmək üçün Paşinyan oktyabr ayında İrəvana səfər etməsi planlaşdırılan Qazaxıstan prezidenti Kasım-Jomart Tokayevlə əvvəlcədən görüşmək istəyəcək. Bundan sonra dekabr ayında Aİİ sammitində nələrin baş verəcəyi barədə bəzi nəticələr çıxara bilərik”, - deyə Melkonyan bildirib.

RAKURS

***V.VƏLİLİ***

# Mən mədəniyyətimdən ölürəm





Lalə Mehralı

***Acından ölmək, qürurundan ölmək, yalnızlıqdan ölmək, kədərindən ölmək, susuzluqdan ölmək, kimsəsizlikdən ölmək: nə qədər növü var ölmədən ölməyin - məcazi mənada. Hərə bir cür çəkir dünyanın yükünü.***

Məni öldürən mədəniyyətimdir. Həqiqi sözümdür. Kobudluğa, hörmətsizliyə, nadanlığa, tərbiyəsizliyə, pintiliyə, vecsizliyə, mədəniyyətsizliyə və bunun kimi çox şeyə biganə qala bilmədiyim üçün, hörmət etdiyim halda hörmət görə bilməyəndə mədəniyyətimdən utanıram.

Mən başqasının növbəsinə dürtülmərəm, ocaqda yağım daşsa da. Kassaya yaxınlaşıb "bircə bunu alacam, olar keçim?" demərəm, ayaqüstə növbə gözləyənlərin boğula-boğula qalmasından istifadə etmərəm. Yerimi bilərəm, sıramı gözləyərəm. Mən başqasına mane olmaram, vaxt-bivaxt kimisə narahat etmərəm, iş vaxtı bitdikdən sonra kiməsə israrla zəng etmərəm, ailə üzvüm belə olsa xəbərdarlıqsız video-zəng etmərəm, 3 çağrıdan artıq zəngi uzatmaram və bu kimi bir çox xırda görünən, böyük mədəniyyət məsələlərinə diqqət edərəm. Amma gecə saat 00.00-da mənə görüntülü zəng edən kontaktımda olmayan, heç tanımadığım insanlar var.

Mədəniyyətsizliyin ən böyüyü yollarda olur. Yol mədəniyyətdir deyirik halbuki. Piyada sürücüyə hörmət etmir, sürücü piyadaya. İnsafən, sürücü piyadaya nəzərən daha mədəniyyıtlidir, cərimənin qorxusundan, bir də "günah öləndə" olmadığı üçün. Məcburdur. Rəqs meydançasına atılan rəqqas kimi qəfildən yolun ortasına şığıyan piyadanı vurub öldürsə, "əlli-ayaqlı" gedəcəyini bilir çünki. Mədəniyyəti genetik olan sürücü sayı azdır.

İşıqforda dayanıb yaşılı gözləyənlərə dəli kimi baxılan bir zamanda yaşamaq işgəncə deyil sizcə? Ötən həftə Sahil Metrostansiyasının çıxışında işıqforla tənzimlənən yolu P trayektoriyasında keçməyə məcbur qalan bir türkiyəli qadın turistin yanındakı oğlana deyindiyini eşitdim: "ne gerek var ki dolanmaya, direkt geçe bilirdik bence". Mədəniyyətin və mədəniyyətsizliyin ölkəsi olmurmuş demək. Yadımdadır, ölkəmizə işləməyə gələn bir amerikalı müəllimdən müsahibə alanda demişdi ki, məni Azəbaycanda ən çox yoran yollardır, səkinin sağı ilə gedəndə belə kiminləsə toqquşursan. Axı sağ gedənin, sol gələnin yoludur, niyə insanlar öz yolu ilə getmir?

Bir-iki həftə əvvəl bir parkdan keçdi yolum. Yorğun idim, oturub dincəlmək istədim. Oturduğum skamyanın taxtalarının arasında hazır qida qalıqlarının paradı vardı. Tum paketi taxtaların arasından göz vururdu, meyvə suyunun boş qabı ağzının suyunu axıdırdı, çips kağızı qımışırdı, dondurma çöpü gələnə-gedənə ilişirdi, enerji içkisinin bankaları "burdan sizin qapıyadək" misalı düzülmüşdü oturacağın altına. Skamyanın düz yanında isə zibil qutusu vardı - yerindən qalxmadan əlini uzatsan yetəcək yaxınlıqda...

Dünən ictimai nəqliyyatda üzbəüz oturacaqlarda oturan bir qadın qarşı skamyaya ayaqqabılı ayağını uzatdı. Bəli, bəli.

Oturdu və ayağını elə ayaqqabılızadlı qarşı skamyaya qaldırıb qoydu. Xəcalətimdən öldüm. Özüm etmiş kimi. Nəsə deyə də bilmədim. Niyə? Ayağını qaldırıb ora qoyan mənim saçımı yolub əlimə verməzdi o avtobusda? Ya da ömrümdə eşitmədiyim, gün üzü görməmiş söyüşlər söyərdi. Lazımdır mənə?

Keçən həftə metro vaqonunda bir gənc qız maqqaşını-güzgüsünü çıxarıb ədəb-ərkanla qaşını aldı hamının içində. İnanmadım əvvəlcə. Metroavtobusda makiyaj edəni görmüşdüm, adiləşmişdi, amma qaş alanı ilk dəfə gördüm. Qaş almaq məhrəm prosesdir. Bəlkə kişilər bilməz, qadınlar bilir bunu. Böyüklərin yanında qaş almazdı qadınlar. Abrı olanlar hələ də almır. Yadıma nənəmin babamın yanında saçını daramadığı düşdü.

Sözün bitməmiş ağzından sözünü qapanlar, dinləməyi bacarmayanlar, oturmağını-qalxmağını, yeməyini-içməyini bilməyənlər, nəqliyyatda evindəki divanda oturumuş kimi ağnaya-ağnaya oturanlar, ictimai yerdə biədəb-biədəb danışanlar, nə böyüyün, nə kiçiyin yerini bilənlər, sənin başqalarına hörmət olaraq piçıltı ilə danışdığın yerdə maksimum səslə videoya baxanlar...

Sizinlə bir cəmiyyətdə yaşamaq işgəncədir.

Elə vaxtlar olur fikirləşirəm, bəlkə də indiki dünyada mədəniyyət insanın özünə qarşı etdiyi ən böyük haqsızlıqdır. Bu qədər mədəniyyətsiz insanın cəmiyyətində, hamının bir-birinin sözünü kəsdiyi yerdə sən dinləyirsənsə, hamının tələsdiyi yerdə sən gözləyirsənsə, hamının "mənə nə?" dediyi yerdə sən utanırsansa, özünə haqsızlıq etmirsənmi?

Kimsə uşağının cinsi orqanını çıxarıb parka işətdirir, sən ölüb yerə girirsən. Əyləncə və oyun parklarında çoxunuz rast gəlmisiniz buna. Mən daha dəhşətlisini görmüşəm. Uşağı məktəbdən götürüb evə qayıdırdım, ikizolaqlı, ikitərəfli yol idi. Qarşıda nəqliyyatın hərəkəti dayandı, mən də əyləci basdım məcbur. Hamı başını çıxarıb yola baxırdı, heç nə görünmürdü. Sonra bir kişi sürücü düşüb qabağa doğru getdi, başını bulaya-bulaya geri qayıtdı və uca səslə dedi: "bir qadın döngədə, elə zolağın ortasındaca maşını saxlayıb uşağının böyük bayırını etdirir yolun kənarına". Təsəvvür edirsiniz? Bilirəm, inanmaq çətindir, amma bu həqiqətdir, biz bunu gördük.

### Ən qəribəsi bilirsiniz nədir?

Mədəni insan çox vaxt mədəniyyətsizin yanında özünü çarəsiz hiss edir. Çünki onun səviyyəsinə düşə bilmir. Mədəniyyəti imkan vermir, kobudluğa kobudluqla cavab verə bilmir, boğulur qalır. Əgər cavab versə, özündən utanacaq. Susur, amma o mədəniyyətsizliyə şahid olduğu üçün içində özü-özünü yeyir. O yolda hərəkəti dayandırıb yolu tualet kimi istifadə edən qadına bunu anlada bilərsənmi? Anlamayacaq. "Qanan qanmaza borcludur" deyib bizi çarəsiz buraxıblar zamanında. Mən niyə borclu olmalıyam o ədəbsizliyi edənə?

### Qalırsan iki od arasında...

Ya sən də onlar kimi olmalısan, ya da onların arasında öz mədəniyyətinlə əziyyət çəkməlisən.Bəlkə də ona görə mədəniyyət haqqında danışanda onu yalnız insanın üstün keyfiyyəti kimi təqdim etmək düzgün deyil.

Mədəniyyət bəzən yükdür.

Görünməyəni görmək, hiss edilməyəni hiss etmək, hamının adi qəbul etdiyini normal hesab etməmək yükü. Bu yük yorur adamı. Bütün bu yorğunluğa baxmayaraq, içimdəki o mədəni adamı öldürmək istəmirəm. Ona ehtiyacım var. Yoxsa dəli olar adam. Mədəniyyətimin əziyyətini çəkə-çəkə yaşayıram. Əlacsız məmnunam, mədəniyyətsiz yaşamaqdan qorxuram çünki.

Mən mədəniyyətimdən ölürəm.



Mətanət Məmmədova

## Terrorizmlə mübarizə Azərbaycanı regionun SÜLH arxitektoruna çevirib

***Azərbaycan təhlükəsizlik adası olsa da, lakin zaman-zaman ölkəmizə ona qarşı saysız terror hadisələrinin şahidi olmuşuq. Belə bir sual yaranır: biz etməmişik, bəs bizə qarşı nə üçün edilib? Əlbəttə ki, dünyanın ədalətsizliyi səbəbindən. Görünür, özlərini demokratik ölkə hesab edənlərin hər biri əslində bunu haqq etmir.***

1989-1990-ci illərdən bəri Ermənistanın Azərbaycana qarşı yeni ərazi iddiaları başlanandan xalqımız bir-birinin ardınca onlarla terror hadisəsi ilə qarşılaşıb. Bunlar Ermənistanın, eləcə də Ermənistanın havadarlarının Azərbaycana qarşı törətdiyi amansız terrorlardır. Bu terrorlar miqyasına və törədilməsinə görə soyqırımından, faciədən, qırğın-qiyamətdən, didərginlikdən, təxribatdan, hiyləgərlikdən qat-qat yuxarıda dayanır.

2020-ci ilin sentyabr ayınadək ötən 30 illik zaman kəsiyində olmazın terrorları ilə üz-üzə gəldik. 20 Yanvar 1990-cı ildə Bakıda törədilən qətliamı deyək, 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecədəki Xocalı faciəsini deyək, 1989-1990-cı illərdən başlayaraq ermənilərin sərhədlərimizə basqınlarını, yüzlərlə övladımızın vəhşicəsinə qətlə yetirilməsini deyək, Birinci Qarabağ müharibəsindəki insanlığa qarşı dəhşətli hadisələri deyək, soydaşlarımızın zorla ata-baba yurdlarından qovulmasını deyək, 20 faizdən artıq torpaqlarımızın işğalını, bu torpaqların yeraltı və yerüstü sərvətlərinin talanmasını deyək, ermənilərin əli ilə xarici ölkələrdə yaşayan soydaşlarımın qətlə yetirilməsini deyək, bəzi ölkələrdəki səfirliklərimizə hücum aksiyalarını təşkil etdiklərini deyək, 44 günlük Vətən müharibəsindən sonra minlərlə soydaşımızın mina qurbanı olmasını deyək, yenə də torpaqlarımızda erməni qruplaşmalarının ekologiyamıza vurduğu ziyanı deyək ki, erməni xislətini açıq ortaya qoya bilsin.

Birinci Vətən müharibəsindən sonra 2000 nəfərdən çox soydaşımız mina qurbanı olub. Bu gün azad etdiyiniz torpaqlarımızın isə təqribən 13 kvadratkilometri minalarla əhatə olunub. Bu ərazilərdə dəfələrlə bədbəxt hadisələrin baş verməsi minalanmış ərazilərin xəritəsinin olmaması səbəbindəndir. Odur ki, mina qurbanı olan soydaşlarımızın sayı 3000-ə yaxınlaşır.

30 il sonra torpaqlarımız işğaldan azad ediləndən, düşmənə 2020-ci ilin 44 günlük payızında həddi göstəriləndən sonra yenə də terror hadisələrindən yaxa qurtara bilmədik. Bununla bağlı olaraq 2022-ci ilin sonlarında Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qanunsuz istismarına etiraz əlaməti olaraq Azərbaycanın qeyri-hökumət təşkilatlarını təmsil edən ekoloqların, fəalların, könüllülərin iştirakı ilə Laçın-Şuşa yolunda 138 gün davam edən etiraz aksiyası keçirildi.

İkinci Qarabağ müharibəsində 44 gündə ermənilərin dinc əhalinin yaşadığı əraziləri nəhəng artilleriyalardan atəşə tutmasına, evləri-həyətləri dağıtmasına, insanların ömrünü sonlandırmasına, Gəncəyə atdıqları raketlə neçə-neçə uşağın ölməsinə, valideynlərini itirməsinə, dağıntılara səbəb olmasına da dünya susdu. Etirazını bildirmədi. Dünya susduqca, terrorlar artır.

Azərbaycan həssas və mürəkkəb geosiyasi məkanda olsa da, ötən illərin uğurlu dövlət siyasəti nəticəsində bərqərar olmuş sürətli inkişaf, sabitlik və əmin-amanlıq, o cümlədən terrorçuluğa qarşı mübarizə sahəsində təhlükəsizlik orqanları tərəfindən görülən effektiv işlər nəticəsində dünyada ən yüksək daxili təhlükəsizlik reytinqinə yüksəlib. Ölkəmiz terror təhlükəsi üzrə qeyd olunan sıralamada "0" indekslə sonuncu - 89-cu yerdə Danimarka, Finlandiya, Qətər kimi ölkələrlə birgə qərarlaşmaqla, dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi ən yüksək reytinqə sahiblənib.

Azərbaycan artıq regionda sülhün arxitektoru aktoru kimi şıxış edir. Ölkəmizlə qürur duyuruq.

# Pul kisəsi tarixə çevrilir?



## Nağdsız ödənişlər sürətlə artır...

***Bir vaxtlar pul kisəsi insanın gündəlik həyatının ayrılmaz hissəsi idi. Cibdə bir neçə manat, xırda pullar, bəzən də böyük məbləğdə nağd pul olmadan evdən çıxmaq demək olar ki, mümkün deyildi. İndi isə bu mənzərə sürətlə dəyişir. İnsan marketə girir, kartını terminala yaxınlaşdırır, telefondan ödəniş edir və yoluna davam edir. Taksi sifarişindən restorana, kommunal ödənişlərdən onlayn alış-verişə qədər pul getdikcə daha az “əlimizdə”, daha çox isə telefonumuzun və bank tətbiqlərinin içində olur.***

SİA mövzu ilə bağlı araşdırma edib.

Bu dəyişiklik artıq sadəcə texnoloji yenilik deyil, gündəlik həyat tərzinin dəyişməsidir. Dünya Bankının 2025-ci il Global Findex məlumatları göstərir ki, dünyada böyüklərin 79 faizi maliyyə hesabına malikdir. Mobil telefon isə rəqəmsal maliyyə xidmətlərinin əsas vasitələrindən birinə çevrilib: dünyada böyüklərin 86 faizi mobil telefona sahibdir. Hesabat 141 ölkədə təxminən 145 min nəfərin məlumatlarına əsaslanır və rəqəmsal ödənişlərin, mobil texnologiyaların və maliyyə xidmətlərinin necə genişləndiyini göstərir.



Azərbaycanda da proses kifayət qədər sürətlə gedir. Mərkəzi Bankın 2026-cı ilin martında açıqladığı məlumatlara görə, 2025-ci ildə ölkədaxili kart əməliyyatlarında nağdsız ödənişlərin payı 67,6 faizə çatıb. Bu, əvvəlki illə müqayisədə 3,4 faiz bəndi artım deməkdir. Həmin il kartlarla ölkədaxili nağdsız ödənişlərin ümumi dəyəri 26 faiz artaraq 99,1 milyard manata yüksəlib. Daha maraqlı məqam isə kontaktsız ödənişlərdə smartfonların rolunun artmasıdır: POS terminallarda həyata keçirilən kontaktsız ödənişlərin hər ikisindən biri artıq smart cihaz vasitəsilə edilib.

Yəni Azərbaycanda insanın “kartla ödəməsi” mərhələsi də dəyişir. Artıq kartın özünü belə cibdən çıxarmağa ehtiyac qalmır. Telefon bank kartının yerini tutur. Apple Pay və Google Pay vasitəsilə həyata keçirilən ödənişlərin sayı da 2025-ci ildə əvvəlki illə müqayisədə 67 faiz artıb. Bakı ictimai nəqliyyatında və metroda kontaktsız bank kartları və mobil cihazlarla ödəniş imkanlarının genişləndirilməsi də bu keçidi insanların gündəlik həyatına daha da yaxınlaşdırıb.

Bununla yanaşı, bank köçürmələrinin özündə də rəqəmsallaşma ciddi sürət alıb. 2025-ci ildə Azərbaycanda cari hesablardan həyata keçirilən köçürmələrin sayının 94,4 faizi rəqəmsal bankçılıq kanalları vasitəsilə aparılıb. Ani Ödəniş Sistemində əməliyyatların sayı isə əvvəlki illə müqayisədə 12,5 dəfə artıb. QR ödənişlərinin sürətlə yayılması da göstərir ki, qarşıdakı illərdə nağdsız ödəniş yalnız bank kartı ilə məhdudlaşmayacaq.



### Bəs bütün bunlar bizi nağdsız cəmiyyətə aparırmı?

Müəyyən mənada, bəli. Amma “nağd pul sabah yox olacaq” demək hələ tezdir. Çünki nağd pulun rəqəmsal ödənişlərin verə bilmədiyi bəzi üstünlükləri var. İnternet kəsilə bilər, telefonun batareyası bitə bilər, bank tətbiqində problem yarana bilər. Nağd pul isə bütün bunlardan asılı deyil. Üstəlik, cəmiyyətin bütün təbəqələri rəqəmsal ödənişlərə eyni sürətlə uyğunlaşmır. Yaşlı insanlar, texnologiyadan az istifadə edən şəxslər və bəzi regionlarda yaşayan insanlar üçün nağd pul hələ də daha rahat və başadüşülən ödəniş vasitəsidir.

Burada daha böyük məsələ ortaya çıxır: nağdsız cəmiyyət rahatlıq gətirməklə yanaşı, kimisə kənarda qoya bilərmi? Çünki rəqəmsal maliyyəyə çıxış üçün təkcə bank hesabının olması kifayət deyil. Telefon, internet, rəqəmsal bacarıq və təhlükəsizlik haqqında bilik də lazımdır. Dünya Bankının Global Findex araşdırması məhz bu fərqlərə də diqqət çəkir və rəqəmsal maliyyənin genişlənməsi ilə yanaşı, yaş, gəlir və digər sosial qruplar arasında rəqəmsal imkanlara çıxış fərqlərinin mövcudluğunu göstərir.



Digər tərəfdən, rəqəmsal ödənişlərin ən böyük üstünlüklərindən biri şəffaflıqdır. Nağd pulun hərəkətini izləmək çətin olduğu halda, elektron ödənişlər maliyyə əməliyyatlarının rəqəmsal izini yaradır. Bu, iqtisadiyyatın şəffaflaşmasına, vergidən yayınmanın və kölgə iqtisadiyyatının müəyyən formalarının qarşısının alınmasına kömək edə bilər. Dövlət və biznes üçün də elektron ödənişlərin üstünlüyü buradadır. Mərkəzi Bankın rəqəmsal ödənişlərin inkişafını strateji prioritetlərdən biri kimi müəyyənləşdirməsi də təsadüfi deyil. Azərbaycan 2024–2026-cı illər Maliyyə Sektorunun İnkişaf Strategiyası çərçivəsində rəqəmsal ödəniş infrastrukturunu genişləndirir və yeni ödəniş iştirakçılarının bazara daxil olmasını təşviq edir.

Amma rəqəmsallaşmanın digər tərəfi də var: kibertəhlükəsizlik. Əvvəllər insanın pulunu oğurlamaq üçün onun cibinə girmək lazım idi. İndi isə bəzən bir saxta SMS, yanlış link və ya telefon danışığı kifayət edə bilər. İnsanların bank kartı məlumatlarının, şifrələrinin və birdəfəlik təsdiq kodlarının ələ keçirilməsi rəqəmsal maliyyənin ən ciddi risklərindəndir. Dünya Bankının yeni Global Findex məlumatlarında rəqəmsal təhlükəsizlik ayrıca ölçülən istiqamətlərdən birinə çevrilib.

Nağdsız ödənişlərin başqa maraqlı tərəfi isə insanın pul xərcləmə psixologiyasını dəyişməsidir. Cibdən 100 manat çıxarıb vermək bir hiss üçün daha real görünür. Telefonda və ya kartda isə eyni məbləği xərcləmək daha asan hiss edilə bilər. Xüsusilə taksit, kredit xətti və “bir kliklə al” imkanlarının genişlənməsi insanın alış-veriş qərarlarını sürətləndirir. Azərbaycanda da Mərkəzi Bank 2025-ci ildə istehlak kredit kartlarından istifadənin artdığını və bununla yanaşı borcun sərəncamda olan gəlirə nisbətinin yüksəldiyini açıqlayaraq kredit kartları üzrə daha məsuliyyətli borclanmanı təşviq edən yeni qaydalar tətbiq edib.



Burada bank komissiyaları məsələsi də ortaya çıxır. Nağdsız ödəniş istehlakçı üçün rahat görünsə də, bu sistemin arxasında banklar, ödəniş təşkilatları, prosessinq mərkəzləri və digər iştirakçılar dayanır. Sahibkar üçün POS-terminaldan istifadə, bank üçün əməliyyatın emalı, ödəniş sistemləri üçün infrastruktur müəyyən xərc yaradır. Azərbaycanda Mərkəzi Bank 2026-cı ilin aprelində kart əməliyyatları üzrə interchange komissiyalarının yuxarı hədlərini aşağı salıb. Məqsədlərdən biri də sahibkarların nağdsız ödəniş qəbul etməsi ilə bağlı xərclərini azaltmaq və QR ödənişlərini daha əlçatan etməkdir.

Beləliklə, məsələ artıq “nağd pul yaxşıdır, yoxsa kart?” sualından daha böyükdür. Söhbət bütövlükdə pul anlayışının dəyişməsindən gedir. Bir vaxtlar pul cibimizdə idi, sonra bank hesabında oldu, indi isə getdikcə telefonumuzun içində yaşayır. Sabah isə ödəniş etmək üçün kartı, telefonu belə çıxarmağa ehtiyac qalmaya bilər. Biometrik identifikasiya, QR, rəqəmsal pul kisələri və digər texnologiyalar ödənişi daha görünməz hala gətirə bilər.

Amma nağdsız gələcək yalnız texnologiya məsələsi deyil. Bu, həm də sosial məsələdir. İnsanların hamısı eyni imkanlara sahib olmadığı üçün rəqəmsal iqtisadiyyat qurularkən yaşlıların, texnologiyadan az istifadə edənlərin, aşağı gəlirli insanların və rəqəmsal savadlılığı zəif olanların da nəzərə alınması vacibdir. Əks halda rahatlıq yaratmaq məqsədi ilə həyata keçirilən proses müəyyən insanlar üçün yeni maneələr yarada bilər.

Azərbaycandakı göstəricilər göstərir ki, istiqamət artıq bəllidir: nağdsız ödənişlərin payı artır, kartdan telefona, telefondan QR-a keçid sürətlənir və rəqəmsal maliyyə gündəlik həyatın daha böyük hissəsinə çevrilir. Ancaq yaxın gələcəkdə nağd pulun tamamilə yox olması yox, onun gündəlik istifadəsinin getdikcə azalması daha real görünür. Bəlkə də gələcəyin əsas sualı “nağd pul olacaqmı?” deyil.

Əsas sual budur: pul fiziki olaraq əlimizdən çıxanda yox, rəqəmsal olaraq hesabımızdan çıxanda biz onu daha çox, yoxsa daha az hiss edəcəyik?

Bu baxımdan nağdsız cəmiyyət sadəcə ödəniş üsulunun dəyişməsi deyil. Bu, insanın pulla münasibətinin dəyişməsidir.

ARAŞDIRMA

***Ayşən Vəli***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Süni İntellekt çip bazarında inqilab edir



***Tayvanın texnologiyadan asılı iqtisadiyyatının bu il son 40 ilə yaxın dövrün ən sürətli artımını nümayiş etdirəcəyi gözlənilir. Ölkənin statistika qurumu cümə günü açıqladığı məlumatda güclü süni intellekt tələbi fonunda iqtisadi artım proqnozunu yüksəltdiyini bildirib.***

Qurumun yeni proqnozuna görə, Tayvanın ümumi daxili məhsulu (ÜDM) 2026-cı ildə 11,05% artacaq. Bu, 1987-ci ildə qeydə alınan 12,75%-lik artımdan sonra ən yüksək göstərici olacaq. May ayında isə iqtisadi artımın 9,64% olacağı proqnozlaşdırılmışdı.

"Tayvanın iqtisadi artımı güclüdür və süni intellektin inkişafı ölkə üçün çox vacibdir. Biz bu prosesi yaxından izləməliyik", — statistika naziri Chen Shu-Tzu jurnalistlərə bildirib. Statistika qurumu isə 2026-cı ildə ölkənin ixracının əvvəlki illə müqayisədə 41,07% artacağını gözləyir. Bu, 1976-cı ildən bəri ən yüksək ixrac artımı olacaq. May ayında qurum ixracın 39,77% artacağını proqnozlaşdırmışdı.

Qeyd edək ki, Tayvan, Nvidia və Apple kimi texnologiya nəhənglərinin süni intellekt çiplərinə və digər texnologiyalara olan tələbatının qarşılanmasında mühüm rol oynayır. Ada dünyanın ən böyük müqaviləli çip istehsalçısı olan Taiwan Semiconductor Manufacturing Co.-nun (TSMC) vətənidir.

Süni intellektə olan yüksək tələbat Tayvan iqtisadiyyatının 2025-ci ildə 8,76% böyüməsinə kömək edib. Statistika qurumu 2026-cı ilin ikinci rübü üzrə iqtisadi artım proqnozunu da cüzi şəkildə yüksələrək 12,93%-ə çatdırıb. İlkin göstərici 12,92% idi.

Qurum gələn il üçün ilk proqnozunu da açıqlayıb. Buna əsasən, Tayvan iqtisadiyyatının 2027-ci ildə 6,04% böyüyəcəyi gözlənilir. Statistika qurumu 2026-cı ildə istehlak qiymətləri indeksinin 2,07% təşkil edəcəyini proqnozlaşdırır. Bu göstərici həm mərkəzi bankın 2%-lik hədəfindən, həm də əvvəlki 1,93%-lik proqnozdan bir qədər yüksəkdir.

Analitiklərin sözlərinə görə, güclü iqtisadi artım və inflyasiya proqnozu Tayvan Mərkəzi Bankının faiz dərəcələrini dəyişməyəcəyi ilə bağlı gözləntiləri gücləndirib. President Capital Management Corp. şirkətinin analitiki Elvis Lu bildirib ki, mərkəzi bankın ilin sonuna qədər əsas faiz dərəcəsini dəyişmədən saxlaması gözlənilir.

Qeyd edək ki, süni intellekt sistemləri üçün çox güclü çiplər lazımdır. Çünki süni intellekt sistemləri böyük həcmdə məlumatı çox qısa müddətdə emal etməlidir və bu istiqamətdə bu sistemlər arasında ciddi rəqabət gedir. Məsələn, ChatGPT kimi sistemlərin işləməsi, şəkil və video yaradan süni intellekt proqramları, səsin tanınması və müxtəlif AI tətbiqləri çoxlu sayda mürəkkəb hesablamalar tələb edir. Bu hesablamaların həyata keçirilməsi üçün güclü çiplərdən istifadə olunur. Daha güclü çipə malik sistem daha sürətli məlumat emal edə bilir.

Bu çiplər əsasən böyük məlumat mərkəzlərində yerləşdirilən serverlərə quraşdırılır. Texnologiya şirkətləri minlərlə güclü çipi bir araya gətirərək süni intellekt modellərini öyrədir və işlədərək istifadəçilərə xidmət göstərirlər.

O cümlədən, Nvidia şirkəti süni intellekt üçün istifadə olunan güclü çiplərin ən böyük istehsalçı və dizaynerlərindən biridir. Lakin bu çiplərin hazırlanması ilə onların fiziki istehsalı eyni şey deyil. Nvidia çipləri layihələndirir, onların istehsalında isə Tayvanın Taiwan Semiconductor Manufacturing Company (TSMC) şirkəti mühüm rol oynayır.

Süni intellektə tələbat artdıqca Nvidia, Apple və digər böyük texnologiya şirkətləri daha çox çipə ehtiyac duyurlar. Bu isə TSMC kimi Tayvan şirkətlərinə daha çox sifariş gəlməsi deməkdir. Nəticədə Tayvan daha çox çip istehsal edir və xarici ölkələrə ixrac edir. İxracın artması ölkəyə daha çox gəlir gətirir, şirkətlərin istehsalını və investisiyalarını artırır. Bütün bunlar isə Tayvan iqtisadiyyatının böyüməsinə təsir göstərir.

Reuters-in məlumatına görə, Tayvanın 2026-cı ildə iqtisadi artım proqnozunun 11,05%-ə yüksəldilməsinin əsas səbəblərindən biri də məhz süni intellekt çiplərinə qlobal tələbatın güclənməsidir.

***Lalə Mehralı***

# 70 milyonluq rüşvət, məbləğ arta bilər

## *Ramiz Mehdiyevin və dəstəsinin cinayət əməlləri ilə bağlı yeni faktlar üzə çıxdı*



Yalanmı, gerçəkmi deyirlər, yazırlar, hətta paylaşırlar ki, insan duran yerdə qudurğan hərəkət etməz, əməllər törətməz. Onu bir növ dingildədən nəsə var. Ola bilsin ki, biri vəzifəsinə arxalanıb ədalı danışır, yekə-yekə çıxışlar edir, digərləri də pulunun, var-dövlətinin çox olmasından qürrələnib gözü ayağının altını görmür. Hər iki təbəqeyi ünsirət "burada mənəm Bağdadda kor xəlifə" deyib, fağır-füqəranı aşağılamağa və özlərini yekə bir zad olduqlarını göstərməyə çalışırlar. Ümumiyyətlə, özlərindən razı məxluqlar aşağı təbəqədən olan insanları heç sevməzlər, onlarla ünsiyyət qurmaq, söhbət etməkdən xoşlamazlar. Dahi şairimiz Məhəmməd Füzuli "Şikayətnamə" əsərində demişkən, "Salam verdim rüşvət deyil deyə almadılar".

Vay o fağır insanların halına ki, qarşılaşacağı əsəbi adamın həm pulu, həm də vəzifəsi olsun. Bu halda susmaq qızıl qaydadır. Hətta sənə sürtüşsə, sataşsa belə dinmək, səsini çıxartmaq qətiyyən məsləhət deyil. Çünki söz qaytarsan halın fəna olar, söyülmək, təhqir edilməklə canını qurtarmağın mümkünsüzdür, döyülməklə xəstəxanalıq olmaq da taleyinə yazılan bir hökm ola bilər. Belə qudurğan məxluqlarla bağlı çoxsaylı misallar, sübutlar göstərə bilərəm. Sadəcə, həmin şəxslərin siyahısını dərc etməklə boş sözçülüyə yol vermiş olaram. Həm də zatən oxucular, ümumilikdə cəmiyyət onların kimliklərinə bələddirlər. Hər gün olmasa da vaxtaşırı puluna, vəzifəsinə arxalanıb at kimi kişnəyən, öküz kimi böyürən məxluqatla rastlaşırlar. Mətbuatdan oxudum ki, haqqında Cinayət Məcəlləsinin 278.1-ci maddəsi – dövlət hakimiyyətini ələ keçirməyə və dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər, 274-cü maddəsi – dövlətə xəyanət və 193-1.3.2-ci maddəsi – cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma maddələri ilə ittiham irəli sürülən Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev vəzifə səlahiyyətlərindən istifadə edərək, ayrı-ayrı şəxslərdən ümumilikdə 70 milyon manat rüşvət alıb. Məlumatda o da qeyd edilir ki, istintaq davam etdiyindən sabiq PA rəhbərinin topladığı rüşvətin məbləğinin artacağı da gözlənilir. Açığı məlumatı oxuyanda təəccüblənmədim, halım da dəyişmədi. Nədən ki, bir qədər əvvəl R.Mehdiyevin baş gicəlləndirən, gözləri qamaşdıran var-dövlətinin uzun siyahısı ilə sosial şəbəkələrdən və mətbuatdan oxumuşdum. Məni təəccübləndirən məqam ondan ibarətdir ki, Ramiz Mehdiyevə rüşvət verən şəxslərin kimliyi məlum deyil. Sadəcə yazırlar ki, Ramiz Mehdiyevə rüşvət verən şəxslər arasında dövlət vəzifəsini tutan və o cümlədən sahibkarlar da var. Bu yerdə yaxşı deyilib, "xub". Yəni rüşvət verən ölüb, ya da dabanına tüpürərək, ölkədən qaçıb? Təbii ki, rüşvət verən şəxslər aramızdadır, hələ də müxtəlif vəzifələrdə və ya biznes sahəsində çalışırlar. Bəli, zamanında Ramiz Mehdiyevlə iş birliyində olub, sonradan ifşa olunduqlarını anladıqlarından xaricə qaçanlar var, onların adları da məlumdur. Misal üçün Baş nazirin keçmiş müavini Abbas Abbasov. Bu məxluq 2006-cı ildə vəzifəsindən azad edildi və "İstiqlal" ordeni ilə təltif edilərək, hörmətlə yola salındı. Düşünmək olardı ki, bundan sonra A.Abbasov çoxsaylı malikanələrindən birinə çəkilib, ölümünü gözləyəcək. O zamana qədər nəvə-nəticələri ilə səmərəli həyat sürüb, şellənəcək. Amma Abbas Abbasov Ramiz Mehdiyevin fətvasına, vəzifədə olduğu zaman topladığı milyardların istiliyinə tab gətirməyib, hakimiyyət eşqinə düşdü və Moskvada oturub, Azərbaycana qarşı təxribatçı planlar qurmağa çalışdı. Ancaq yaxısı deyiblər, "oğurluqla, ... 40 gün çəkər". A.Abbasovun da məkrli planı çox çəkmədi və ifşa olundu. Artıq onun həmfikirlərinin böyük hissəsi həbs olunublar, özünün də dəmir barmaqlıqlar arxasına salınması an məsələsidir. Yeni Rusiya üzüdönüklük etsə, A.Abbasov növbədənkənar aviareyslə Moskvadan Bakıya göndəriləcək.

Ramiz Mehdiyev varına-dövlətinə, yayxandığı kreslosuna güvənib ələ aldığı və çirkin oyunları üçün istifadə etdiyi məxluqlar sırasında Abbas Abbasovla yanaşı Ramiz Mehdiyevin dəstəsinin fəal üzvləri sırasında XİN rəhbəri Elmar Məmmədyarov, Prezident Administrasiyasının sabiq şöbə müdiri Əli Həsənov, sabiq mədəniyyət naziri Əbülfəs Qarayev, özünü "hakimiyyətin bolşeviki" hesab edən, vaxtilə AXCP-nin gənclər təşkilatının fəali olan Azər Qasımov, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov və onun müəyyən məqsədlər üçün Abxaziyaya pul ötürən qudası Cahangir Hacıyev, Baş qərargah rəisi, general Nəcməddin Sadıqov və digərləri də var. Ramiz Mehdiyevin "qara kassası", keçmiş nəqliyyat naziri Ziya Məmmədov da şəbəkənin əsas fiqurlarından hesab olunur. Hətta Z.Məmmədov R.Mehdiyevdən "molodes" almaq üçün Göyçayda ona villa da tikdirib. R.Mehdiyev AMEA-ya gələndə ətrafına yığdığı "sadiqləri" arasında başda Ziya Məmmədovun qardaşı, sabiq deputat Elton Məmmədov da olub. Elton Məmmədov AMEA-nın "Yüksək Texnologiyalar Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru təyin edilmişdi və Ramiz Mehdiyev üçün rüşvət sxeminin qurulması, onun idarə edilməsi ilə məşğul olan əsas iki adamdan biri idi. R.Mehdiyevin dəstəsinin üzvləri arasında SOCAR-ın İnvestisiya Departamentinin sabiq rəhbər müavini Adnan Əhmədzadə də olub. Bu məxluq geniş maliyyə imkanlarına, biznes əlaqələrinə malik olmaqla yanaşı, həm də Rusiya və fars-molla rejiminin bəzi rəsmi şəxsləri ilə separat əlaqələri olub. Məhz bu separat əlaqələrə əsasən o, Azərbaycanın iqtisadi təhlükəsizliyinə qarşı təxribatlar həyat keçirib. Onun adı dəfələrlə ofşor şirkətlər, saxta sertifikatlar və şübhəli maliyyə əməliyyatları ilə yanaşı çəkilib. Xüsusilə də sanksiyalar altında əzilən Rusiya neftinin başqa ölkələr hesabına bazarlara çıxarılması, beynəlxalq enerji siyasətində gizli oyunlarda iştirakı barədə çoxsaylı faktlar mövcuddur. Özünü milli demokratların əsas fiqluru kimi təqdim edib, daim sözdə, mətbuata verdiyi açıqlamalarında Ramiz Mehdiyevi "tənqid" edən AXCP sədri Əli Kərimli, əslində separatçı yığnağın əsas fəallarından olub. Yəni birbaşa Ramiz Mehdiyevin sifarişlərinin qulu və icraçılarından olub.

Yaxşı ki, məqamında cinayətkar dəstə Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən ifşa olundular. Əks halda vəziyyət heç də ürəkaçan olmazdı. Hətta 2003- cü il oktyabr iğtişaşları təkrarlana bilərdi. Bu isə böyük və qüdrətli Azərbaycanın adına, beynəlxalq imicinə xələl gətirərdi. Düşmənlər, xaricdəki antimilli ünsürlər belə vəziyyətin yaranmasından istifadə edərək ölkəmizə qarşı qarayaxma kampaniyasını genişləndirərdilər. Lakin hüquq-mühafizə orqanları xarici və daxili məkrli qüvvələrin planlarını alt-üst etdi, arzularını da gözündə qoydu. Artıq cinayətkar dəstə həbs olunublar və onları uzun müddətə cəza gözləyir.

Son olaraq onu qeyd etmək lazimdir ki, pul yaxşı şeydir, vəzifədə pis deyil, lakin bunların hər ikisi hər şey deyil.

***İ.ƏLİYEV***

SON SƏHİFƏ

SƏS

4 sentyabr
2026-cı il

**“SƏS” qəzetinə abunə kampaniyası davam edir!**



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. PressaInform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN

6 aylıq 48 AZN

1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Həkimlərimizi tanıyaq!

***“Həkimlərimizi tanıyın!” rubrikamızda infeksion xəstəliklərin diaqnostikası və müalicəsində zəngin beynəlxalq təcrübəyə malik, yüksək ixtisaslı həkim-infeksionist Dr. Mədinə Abdullayevanı təqdim edirik. İnfeksion xəstəliklər bəzən gözlə görünməyən, lakin orqanizmdə ciddi dəyişikliklərə səbəb ola bilən proseslərdir. Bu xəstəliklərin vaxtında aşkarlanması, düzgün diaqnostik yanaşmanın seçilməsi və müasir müalicə protokollarının tətbiqi yüksək peşəkarlıq və geniş klinik təcrübə tələb edir. İnfeksionist həkim isə yalnız xəstəliyi müalicə edən deyil, həm də onun səbəbini müəyyənləşdirən, mümkün ağırlaşmaların qarşısını alan və pasiyentin sağlamlığının bərpasını kompleks şəkildə təmin edən mütəxəssisdir.***



Məhz belə yüksəkixtisaslı mütəxəssislərdən biri Dr. Mədinə Abdullayevadır. O, Mərkəzi Gömrük Hospitalında infeksion xəstəliklər və klinik mikrobiologiya sahəsində fəaliyyət göstərir, müxtəlif mürəkkəb infeksion xəstəliklərin diaqnostikası və müalicəsini həyata keçirir. Dr. Mədinə Abdullayeva haqqında daha ətraflı məlumat: https://customshospital.az/medina-abdullayeva/#

## Beynəlxalq təhsil və peşəkar inkişaf

Dr. Mədinə Abdullayeva 2002-ci ildə Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsini bitirmiş, 2001–2002-ci illərdə Elmi-Tədqiqat Kardiologiya İnstitutunda kardiologiya ixtisası üzrə internatura keçmişdir. Peşəkar inkişafını beynəlxalq səviyyədə davam etdirən həkim 2012–2017-ci illərdə Türkiyənin nüfuzlu Dokuz Eylül Universitetində Yoluxucu xəstəliklər və Klinik Mikrobiologiya şöbəsində uzmanlıq təhsili almışdır. Türkiyədə əldə etdiyi ixtisaslaşma və klinik təcrübə Dr. Mədinə Abdullayevanın infeksion xəstəliklərin müasir diaqnostikası və müalicəsi sahəsində peşəkar fəaliyyətinin formalaşmasında mühüm rol oynamışdır.

## Mürəkkəb infeksion xəstəliklərin müasir müalicəsi

Dr. Mədinə Abdullayeva Mərkəzi Gömrük Hospitalında geniş spektrli infeksion xəstəliklərin diaqnostikası və müalicəsi ilə məşğul olur. Onun peşəkar fəaliyyət istiqamətlərinə infeksion xəstəliklər, klinik mikrobiologiya, göbələk infeksiyaları, virus hepatitləri, vərəm, bruselyoz, leyşmaniyoz, parazitar xəstəliklər, səbəbi bilinməyən qızdırma, febril neytropeniya, transplant infeksiyaları, protez infeksiyaları, diabetik pəncə və diabetik ayaq infeksiyaları daxildir.

Xüsusilə immun sistemi zəifləmiş pasiyentlərdə, transplantasiya sonrası dövrdə və mürəkkəb infeksion proseslər zamanı düzgün diaqnostik yanaşma və fərdi müalicə strategiyasının müəyyənləşdirilməsi böyük əhəmiyyət daşıyır.

## Beynəlxalq təcrübə və elmi fəaliyyət

Dr. Mədinə Abdullayeva uzun illər ərzində Türkiyənin müxtəlif tibb müəssisələrində peşəkar fəaliyyət göstərmişdir. 2017–2021-ci illərdə Özəl Ege Şəhər Xəstəxanasında İnfeksion xəstəliklər və Klinik Mikrobiologiya mütəxəssisi kimi çalışan həkim, 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatının REACT C19 proqramında konsultant-həkim və İnfeksion Xəstəliklər və Klinik Mikrobiologiya mütəxəssisi kimi fəaliyyət göstərmişdir. 2021-ci ildən etibarən isə Dr. Mədinə Abdullayeva Mərkəzi Gömrük Hospitalında həkim-infeksionist kimi fəaliyyətini davam etdirir.

## Elmi araşdırmalar və beynəlxalq konfranslar

Peşəkar fəaliyyəti ilə yanaşı, Dr. Mədinə Abdullayeva elmi və beynəlxalq tədbirlərdə də fəal iştirak etmişdir. 2016-cı ildə Hollandiyanın Amsterdam şəhərində keçirilən ECCMID 2016 konfransında “Toplum mənşəli ağırlaşmış abdominal infeksiyaların epidemiologiyası və antimikrobiyal rezistentlik vəziyyəti” mövzusunda çıxış etmişdir. 2018-ci ildə Türkiyədə keçirilən XIX Türkiyə Klinik Mikrobiologiya və Yoluxucu Xəstəliklər Konqresində xroniki hepatit B ilə bağlı qaraciyər zədələnməsi, HBV DNT səviyyəsi və Golgi protein 73 ekspressiyası arasındakı əlaqəyə dair elmi araşdırmasını təqdim etmişdir.



2019-cu ildə isə XX Türk Klinik Mikrobiologiya və Yoluxucu Xəstəliklər Konqresində xroniki hepatit B ilə bağlı qaraciyər zədələnməsi və HBV DNT səviyyəsinin HBsAg ekspressiyası arasındakı əlaqəyə dair elmi işi ilə çıxış etmişdir. 2021-ci ildə Türkiyənin Ankara şəhərində Türkiyə Xəstəxana İnfeksiyalarına Nəzarət Dərnəyinin təşkil etdiyi “Xəstəxana İnfeksiyaları” Beynəlxalq Konqresində iştirak etmişdir.

## Beynəlxalq peşəkar təşkilatların üzvü

Dr. Mədinə Abdullayeva bir sıra nüfuzlu beynəlxalq və peşəkar tibb təşkilatlarının üzvüdür. O, Türkiyə Klinik Mikrobiologiya və İnfeksion Xəstəliklər Cəmiyyəti, Türkiyə İnfeksion Xəstəliklər və Klinik Mikrobiologiya Cəmiyyəti, Avropa Klinik Mikrobiologiya və İnfeksion Xəstəliklər Cəmiyyəti (ESCMID) və Amerika İnfeksion Xəstəliklər Cəmiyyətinin (IDSA) üzvüdür.

Müasir elmi yanaşmaları, beynəlxalq təcrübəsi və davamlı peşəkar inkişafı ilə Dr. Mədinə Abdullayeva infeksion xəstəliklərin müalicəsində pasiyentlərə yüksək səviyyəli tibbi xidmət göstərilməsinə öz töhfəsini verir.

## Mərkəzi Gömrük Hospitalında peşəkar infeksion xidməti

İnfeksion xəstəliklərin müasir diaqnostikası, müalicəsi və ağırlaşmalarının idarə olunması istiqamətində Mərkəzi Gömrük Hospitalında yüksəkixtisaslı mütəxəssislərin fəaliyyəti pasiyentlərə kompleks tibbi yanaşmanın təmin edilməsinə imkan yaradır. Dr. Mədinə Abdullayevanın qəbuluna yazılmaq üçün əlaqə nömrəsi: (012) 404-08-08

Mərkəzi Gömrük Hospitalı
Bakı şəhəri, K.Kazımzadə küçəsi, 118

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**

**Tiraj: 2000**